# Sedivitaks kapsullar
# Sedivitax capsules

**Bioloji fəallığa malik qida əlavəsi**

**Təsviri**
Sedivitaks kapsulları yuxuya getmənin asanlaşdırılması və onun keyfiyyətinin yaxşılaşdırılması üçün hazırlanmış formuladır. Məhsul gərginliyin aradan qaldırılması və relaksasiya məqsədilə gündüz də qəbul edilə bilər. Məhsulun ikiqat təsiri mühüm əhəmiyyət kəsb edir, çünki fizioloji yuxu yalnız orqanizmi gün ərzində balans vəziyyətində saxlaya bildikdə mümkün olur. Bu isə o deməkdir ki, axşam orqanizm yuxuya hazır olmalıdır. Gündəlik fəaliyyətlə əlaqəli olan bir sıra faktorlar stress vəziyyətləri yaradır ki, bu da orqanizmdə oyanıqlığı artırır. Məhz bu səbəbdən də normal yuxunun başlanması və təmin edilməsi prosesi pozula bilər. Sedivitaks kapsullarının təsiri liofilizə edilmiş pişikotu, bədrənc otu və qızıl lalə ekstraktlarının, xüsusilə də, yüksək flavonoid tərkibli iki ekstraksiya fraksiyasının kombinasiyası vasitəsilə əldə edilən, passifloranın yaxşı tanınan relaksasiyaedici və yuxugətirici xassələrini özündə birləşdirən, patentləşdirilmiş **Passiflò 2-LMF** kompleksinin (patent No 0787496) bir-birinə sinergizmi nəticəsində meydana çıxır.

**Tərkibi (2 kapsulda)**
*Təsiredici maddələr (miqdarı göstərilməklə):*
Passiflò 2-LMF (İnkarnat Passiflorası yarpaqlarının çoxfraksiyalı liofilizəedilmiş ekstraktı) Passiflò 2-LMF (Passiflora incarnata leaf multifraction freeze dried extract) – 387.2 mq, Pişikotu kökünün tam fitokompleks konsentratı (Valeriana officinalis) root whole phytocomplex concentrate – 290.4 mq, Kaliforniya laləsinin (Qızıl lalə) yarpaqları və çiçəyinin tam fitokompleks konsentratı (Eschscholzia californica) leaf and flower whole phytocomplex concentrate – 135.4 mq, Bədrənc yarpaqlarının tam fitokompleks konsentratı (Melissa officinalis) leaf whole phytocomplex concentrate - 145.2 mq
*Köməkçi maddələr:*
Lavandanın efir yağı (Lavender essential oil), Mərzənin efir yağı (Majoram essential oil), Jelatin (Jelatine)

**İstifadəsinə göstərişlər**
MSS – nin fəaliyyətini yaxşılaşdırmaq məqsədilə tövsiyə olunan BFMQƏ.

**Əks göstərişlər**
Məhsulun hər hansı bir komponentinə qarşı fərdi həssaslıq.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Dərman vasitəsi deyildir. Xəstəliklərin müalicəsi məqsədi ilə istifadə edilə bilməz. Tövsiyə edilən sutkalıq dozanı keçməyin. BFMQƏ normal qidalanmanı əvəz etmir. Hamiləlik və laktasiya dövründə, xəstəlik və ya dərman istifadəsi zamanı həkimlə məsləhətləşin.

**İstifadə qaydası və dozası**
18 yaşdan yuxarı şəxslərə gündə 1 və ya 2 kapsul daxilə qəbul etmək tövsiyə olunur.

**Buraxılış forması:**
Kapsul, №30 (2x15) blisterdə, içlik vərəqə ilə birlikdə karton qutu qablaşmada

**Saxlanma şəraiti:**
$25^{0}$C - dən yüksək olmayan temperaturda, quru, günəş süası düşməyən yerdə və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti:**
4 il

**İstehsalçı:**
Aboca S.p.A. Societa Agricola, İtaliya

**Ünvan:**
Località Aboca, 20 - 52037 Sansepolcro (AR) - İtaliya